Subhənallah valhəmdulilləh, və ləə iləhə illallah,vallahu əkbər" söyləmək günəşin üzərinə doğduğu hər şeydən mənə sevimlidir

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: ""Subhənallah valhəmdulilləh, və ləə iləhə illallah,vallahu əkbər" söyləmək günəşin üzərinə doğduğu hər şeydən mənə sevimlidir".
[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, uca Allahı bu əzəmətli kəlimələrlə zikr etmək dünya və dünyada nə varsa ondan xeyirlidir. Bunlar: "SubhanAllah": Uca Allahı hər cür nöqsanlardan pak tutmaq. "Əlhəmdulilləh": kamil sifətləriylə Ona məhəbbət bəsləyərək və təzim edərək Onu tərifləmək. "Ləə iləhəh illallah": Allahdan başqa haqq məbud yoxdur. "Allahu əkbər": hər şeydən ən böyük və ən əzəmətli olan.

http://www.sunnah.global/hadeeth/az/show/6211